# Qəhrəman polis zabitlərimiz

**Beynəlxalq Gənclər Günündə cavan ömrünü Vətənə qurban vermiş 2 Milli Qəhrəmanımızı da ehtiramla yad edirik. Onlar bu gün yubileyləri olan Əli Məmmədov və Sərdar Səfərovdur. Hər ikisi polis zabiti olub və Birinci Qarabağ müharibəsində şəhadətə ucalıb.**

Əli Hüseyn oğlu Məmmədov 1955-ci ildə Naxçıvan şəhərində dünyaya göz açıb. Orta təhsilini Bakıdakı 255 saylı məktəbdə alıb. 1975-ci ildə ordu sıralarına çağırılan Əli Macarıstanda xidmətini başa vurub. 1982-ci ildə Polis Akademiyasına daxil olub. Polis kapitanı rütbəsinədək yüksəlib. Əli Məmmədov 1992-ci ildə torpaq iddialı erməni separatçılarının dərsini vermək üçün cəbhəyə gedib. Həftələrlə Qarabağın müxtəlif bölgələrində döyüşlərdə qəhrəmancasına vuruşub, Laçının müdafiəsində rəşadət göstərib.

Qızartı yüksəkliyini ələ keçirən döyüşçülərimiz həmin il



oktyabrın 1-də səhər tezdən güclü hücuma məruz qalırlar. Yaralıları təhlükəsiz yerə çıxaran və döyüşün qaynar nöqtəsində vuruşan Əli də başından ağır yaralanır. Mərd və cəsur döyüşçü elə bu yaradan da əbədiyyətə qovuşur.

Bakıda Şəhidlər xiyababında dəfn edilmiş Əli Məmmədovun adı paytaxtdakı küçələrdən birinə verilib...

Sərdar Mədət oğlu Səfərov isə 1960-cı ilin bu günü Kəlbəcər rayonunda doğulub. 1977-ci ildə orta məktəbi bitirib və kolxozda işləyib. 1979-cu ildə



əsgərliyə gedib. Hərbi xidmətini Ermənistan və Gürcüstan respublikalarında keçib. Ordudan tərxis olunduqdan sonra Bakı Avtomobil Zavodunda işə düzəlib. Daxili işlər orqanlarında işləmək arzusu onu Tula vilayətinə aparıb. O, Zaoks rayonunda 3 il mühafizə bölməsində milis nəfəri kimi xidmət edib. Təhsilini davam etdirmək üçün SSRİ DİN-nin Kaunas Xüsusi Milis Məktəbinə göndərilib. 1987-ci ildə zabit kimi köhnə iş yerinə qayıdıb. Nümunəvi milis işçisi olduğunu nəzərə alaraq, onu sahə müvəkkili vəzifəsinə irəli çəkiblər. Amma gecə-gündüz qəlbi daim Vətənlə döyünən Sərdar 1991-ci ildə Azərbaycana qayıdıb. Qusar rayon polis şöbəsində sahə müvəkkili kimi xidmətə başlayıb.

...1991-ci il sentyabrın 25-də erməni terrorçuları Əsgəran rayonunda "QAZ-53" markalı sərnişin avtobusuna hücum edirlər. Baş leytenant S.Səfərov da köməyə gələn istintaq qrupunun tərkibində olur. Onun istintaq qrupunda müstəntiq işləməsi barədə sərəncam verilir. Hadisə yerindən qayıdan qrupun üzvləri Xankəndi yaxınlığındakı "Ağa körpüsü"ndə erməni yaraqlılarının hücumuna məruz qaldılar. Sərdar Səfərov yoldaşlarını xilas edərkən qəhrəmancasına həlak olur.

Ölümündən 2 həftə sonra – 8 oktyabr 1992-ci ildə Sərdar Səfərova "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilib. Doğma yurdu Kəlbəcərdə dəfn edilmiş qəhrəmanın adına orada küçə var.

***Əli NƏCƏFXANLI***
***XQ***

Xalq qəzeti .- 2025.- 12 avqust (№167).- S.6.